**“2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 yanvar tarixli 988 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. “2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. “2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 3 aprel 2015-ci il**
**№ 1160**

Azərbaycan Respublikası Prezidentinin
2015-ci il 3 aprel tarixli 1160 nömrəli
Sərancamı ilə təsdiq edilmişdir
TƏSDİQ EDİLMİŞDİR

**2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı**

## TƏDBİRLƏR PLANI

| Sıra N-si | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| **1. Kənd təsərrüfatı məhsulları istehsalının dəstəklənməsi** | | | |
| 1.1. | Əkinçilikdə yeni texnologiyaların və təkrar əkinlərin tətbiqinə dair təkliflərin hazırlanması | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Maliyyə Nazirliyi | II rüb |
| 1.2. | Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən dövlət yardımlarının sistemləşdirilməsi və mövcud normativ hüquqi aktların təkmilləşdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Maliyyə Nazirliyi | III rüb |
| 1.3. | "Aqrolizinq" ASC tərəfindən dövlət vəsaiti hesabına alınan kənd təsərrüfatı texnikalarının, texnoloji avadanlıqların, mineral gübrələrin və cins damazlıq heyvanların lizinq yolu ilə satılması şərtlərinin | Kənd Təsərrüfatı Nazirliyi, "Aqrolizinq" ASC | II rüb |

| | | | |
|---|---|---|---|
| | təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması | | |
| 1.4. | Hər bir iqtisadi rayonun xüsusiyyəti, təbii və iqlim şəraiti nəzərə alınmaqla, kənd təsərrüfatı məhsullarının istehsalının ixtisaslaşdırılması üzrə təkliflərin hazırlanması | Kənd Təsərrüfatı Nazirliyi | IV rüb |
| 1.5. | Kənd təsərrüfatı məhsullarının istehsalı, idxalı və ixracı zamanı məhsulların keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi | il ərzində |
| 1.6. | Müasir suvarma sistemlərinin kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən tətbiqinə dəstək verilməsi | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |
| 1.7. | Bölgələrin xüsusiyyətlərindən asılı olaraq, kiçikhəcmli emal müəssisələrinin yaradılmasının dəstəklənməsi | İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, rayon icra hakimiyyətləri | il ərzində |
| 1.8. | 5-10 başlıq cins ətlik-südlük qaramaldan ibarət ailə-fermer | Kənd Təsərrüfatı Nazirliyi, rayon icra | il ərzində |

| | | | |
|---|---|---|---|
| | təsərrüfatlarının yaradılmasının dəstəklənməsi | hakimiyyətləri | |
| 1.9. | Heyvandarlığın yem bazasının yaxşılaşdırılması, eləcə də qüvvəli yemlərin istehsalı üzrə ixtisaslaşmış nümunəvi təsərrüfatların yaradılmasının dəstəklənməsi | Kənd Təsərrüfatı Nazirliyi, rayon icra hakimiyyətləri | il ərzində |
| 1.10. | Regionlarda aqroparkların yaradılmasının dəstəklənməsi | İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |
| 1.11. | Kənd təsərrüfatı məhsullarının satış şəbəkələrinin genişləndirilməsi və yeni istehlak bazarlarına çıxmaq üçün ölkə xaricində logistik mərkəzlərin yaradılmasının təşviq edilməsi | İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |
| 1.12. | Müasir tələblərə cavab verən satış yarmarkalarının və “yaşıl marketlər”in təşkilinin dəstəklənməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, rayon icra hakimiyyətləri | il ərzində |
| **2. Kənd təsərrüfatı sahəsində potensialın gücləndirilməsi** | | | |
| 2.1 | Toxum Fondunun fəaliyyətinin təmin edilməsi | Kənd Təsərrüfatı Nazirliyi | III rüb |
| 2.2 | Müasir metodlardan istifadə etməklə, sertifikatlı toxum və | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |

| | | | |
|---|---|---|---|
| | meyvə tingləri istehsalının artırılması | | |
| 2.3 | Respublika Süni Mayalama Mərkəzinin yenidən qurulması | Kənd Təsərrüfatı Nazirliyi | IV rüb |
| 2.4 | Ağdam Atçılıq zavodunun yenidən qurulması | Kənd Təsərrüfatı Nazirliyi | IV rüb |
| 2.5 | İri fermer təsərrüfatlarının yaradılması istiqamətində işlərin davam etdirilməsi | İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, rayon icra hakimiyyətləri | il ərzində |
| 2.6 | İcarəyə götürülərək istifadə olunmayan kənd təsərrüfatı təyinatlı torpaqların müəyyən edilməsi, həmin torpaq sahələri ilə bağlı tədbirlərin görülməsi, həmçinin kənd təsərrüfatı təyinatlı torpaqların səmərəli istifadə olunması üçün müvafiq tədbirlərin görülməsi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ədliyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, İqtisadiyyat və Sənaye Nazirliyi, rayon icra | il ərzində |

| | | | |
|---|---|---|---|
| | | hakimiyyətləri | |
| 2.7 | Tovuzçay su anbarının və Şəmkirçay magistral kanallarının tikintisinin davam etdirilməsi | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, İqtisadiyyat və Sənaye Nazirliyi, Maliyyə Nazirliyi, rayon icra hakimiyyətləri | il ərzində |
| 2.8 | "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi üzrə Xızı, Siyəzən və Şabran rayonlarında yerləşən yeni suvarılan torpaqlarda meliorativ tədbirlərin davam etdirilməsi | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, rayon icra hakimiyyətləri | il ərzində |
| 2.9 | Kənd Təsərrüfatı Nazirliyinin rayon (şəhər) idarələrinin inzibati binalarının tikintisinin davam etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |
| 2.10 | Regionlarda kənd təsərrüfatı texnikasına xidmət üçün məntəqələrin, habelə təlim mərkəzlərinin yaradılması | Kənd Təsərrüfatı Nazirliyi, "Aqrolizinq" ASC | il ərzində |
| 2.11 | Respublika Baytarlıq Laboratoriyasının yenidən | Kənd Təsərrüfatı Nazirliyi | IV rüb |

| | | | |
|---|---|---|---|
| | qurulması, zona baytarlıq laboratoriyalarının müasir standartlara uyğun qurulması | | |
| 2.12 | Rayon baytarlıq idarələrinin avadanlıq və preparatlarla təchizatının yaxşılaşdırılması, mobil “Səyyar Baytarlıq Sanitariya Ekspertiza Laboratoriyaları”nın alınması | Kənd Təsərrüfatı Nazirliyi | III rüb |
| 2.13 | Müasir tələblərə cavab verən heyvan kəsimi məntəqələri şəbəkəsinin genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, rayon icra hakimiyyətləri | il ərzində |
| 2.14 | Beynəlxalq Epizootik Büronun standartları əsasında heyvanlarda brusellyoz xəstəliyinə qarşı mübarizə proqramının tətbiqinin davam etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |
| 2.15 | Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə təkliflərin hazırlanması | Kənd Təsərrüfatı Nazirliyi | II rüb |
| 2.16 | İnsan sağlamlığının, flora və faunanın qorunması məqsədi ilə | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |

| | | | |
|---|---|---|---|
| | bütün mübarizə üsullarını (aqrotexniki, mexaniki, fiziki, kimyəvi, karantin) özündə birləşdirən inteqrir mübarizə tədbirləri sistemlərinin hazırlanması və tətbiq edilməsi | | |
| 2.17 | Kənd təsərrüfatı sahəsində sığorta mexanizminin tətbiqi istiqamətində işlərin davam etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi | il ərzində |
| 2.18 | Beynəlxalq layihələr çərçivəsində kənd yerlərində maliyyə xidməti göstərən yerli maliyyə institutları şəbəkəsinin genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Mərkəzi Bank, Maliyyə Nazirliyi | il ərzində |
| 2.19 | Beynəlxalq layihələr çərçivəsində Yevlax, Ağdaş, Qazax, Ağstafa və Tovuz rayonlarında təsərrüfatdaxili suvarma-drenaj şəbəkəsində təmir-bərpa işlərinin davam etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |
| 2.20 | FAO-nun Azərbaycan Respublikasında Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin təsis edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Xarici İşlər Nazirliyi | III rüb |
| 2.21 | Kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması üçün Kodeks Alimentarius və digər | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Kənd Təsərrüfatı | il ərzində |

| | | | |
|---|---|---|---|
| | mütərəqqi beynəlxalq standartlar əsasında milli standartların hazırlanması və mövcud standartların təkmilləşdirilməsi | Nazirliyi | |
| **3. Kənd təsərrüfatı sahəsində elmi təminatın və kadr hazırlığının yaxşılaşdırılması** | | | |
| 3.1 | Aqrar yönlü elmi tədqiqat institutlarının və Regional Aqrar Elm Mərkəzlərinin modernləşdirilməsi, kənd təsərrüfatı sahəsində innovasiyaların yayımı və məsləhət xidməti üzrə şəbəkənin formalaşdırılması | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |
| 3.2 | Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki elmi tədqiqat institutlarının strukturunun optimallaşdırılması və onların maddi-texniki təminatının yaxşılaşdırılması məqsədi ilə təkliflərin hazırlanması | Kənd Təsərrüfatı Nazirliyi | II rüb |
| 3.3 | Dağ rayonları üçün kənd təsərrüfatı sisteminin işlənib hazırlanması | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | IV rüb |
| 3.4 | Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələrinin yaşayış | Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan | IV rüb |

| | | | |
|---|---|---|---|
| | şəraitinin yaxşılaşdırılması üçün yataqxanaların tikintisi, tələbələrin sosial müdafiəsinin gücləndirilməsi və məzunların işlə təminatı səviyyəsinin yüksəldilməsi üçün tədbirlərin görülməsi | Dövlət Aqrar Universiteti | |
| **4. Kənd təsərrüfatı sahəsində informasiya texnologiyaları üzrə infrastrukturun gücləndirilməsi və elektron kənd təsərrüfatı sisteminin yaradılması** | | | |
| 4.1 | Avropa İttifaqının "İnteqrasiya Olunmuş Nəzarət Sistemi" prinsipinə əsaslanan və Torpaq Sahələrinin İdentifikasiyası Sistemi, Fermer Təsərrüfatlarının Reyestri, Biznes Təhlili və Hesabatlar Modulu, Sənədlərin İdarə Olunması Sistemi, Ərizələrin Emalı Modulu, Ödənişə İcazə Modulu və Risklərin Təhlili Modulu komponentlərindən ibarət olan "Elektron kənd təsərrüfatı" sisteminin yaradılması üzrə işlərin sürətləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC | IV rüb |
| 4.2 | Kənd təsərrüfatı təyinatlı torpaqların coğrafi məlumat bazasının və informasiya sisteminin yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmlak | IV rüb |

| | | | |
|---|---|---|---|
| | | Məsələləri Dövlət Komitəsi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC | |
| 4.3 | Kənd təsərrüfatı sektoruna aid müəssisə və obyektlərin, sahibkarlıq subyektlərinin məlumat bazasının yaradılması | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Statistika Komitəsi | il ərzində |
| 4.4 | Dövlət Fitosanitar Nəzarəti Xidmətinin karantin məntəqələrinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə qoşulması, habelə Xidmətin funksional fəaliyyəti üzrə elektron xidmətlərin yaradılmasının davam etdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | IV rüb |
| 4.5 | Lizinq əməliyyatlarının avtomatlaşdırılması sisteminin yaradılması istiqamətində işlərin başa çatdırılması | “Aqrolizinq” ASC | III rüb |
| 4.6 | Kənd təsərrüfatı texnikalarının qeydiyyatı üzrə elektron sistemin yaradılması | Kənd Təsərrüfatı Nazirliyi | III rüb |
| 4.7 | Kənd Təsərrüfatı Nazirliyi sistemi üzrə informasiya kommunikasiya | Kənd Təsərrüfatı Nazirliyi | IV rüb |

| | | | |
|---|---|---|---|
| | texnologiyaları strategiyasının hazırlanması, Nazirliyin mərkəzi məlumat bazası və korporativ şəbəkə infrastrukturunun və mərkəzi aparatında Çağrı Mərkəzinin, elektron kargüzarlıq, insan resurslarının idarə edilməsi və elektron arxiv sistemlərinin yaradılması | | |
| 4.8 | Kənd təsərrüfatı məhsullarının istehsalçı, topdansatış və pərakəndə satış qiymətləri üzrə mütəmadi monitorinq məlumatları əsasında bazar iştirakçıları və ictimaiyyət üçün açıq elektron informasiya sisteminin qurulması | Kənd Təsərrüfatı Nazirliyi | III rüb |
| **5. Təbliğat və təşviqat işlərinin təşkili** | | | |
| 5.1 | Kooperativ təsərrüfatçılığın üstünlükləri və nümunəvi fermer təsərrüfatlarının iş təcrübəsi barədə təbliğat işlərinin aparılması, aqrar sektorun dövlət tərəfindən dəstəklənməsinin forma və üsulları ilə bağlı maarifləndirici çap materiallarının hazırlanması və yayılması, bu sahədə kənd | Kənd Təsərrüfatı Nazirliyi, “Aqrolizinq” ASC | il ərzində |

| | | | |
|---|---|---|---|
| | təsərrüfatı muzeyi və kitabxanasının potensialının gücləndirilməsi | | |
| 5.2 | Kənd təsərrüfatı sahəsində ən yaxşı məqalələrin müsabiqəsinin keçirilməsi və qalib jurnalistlərin mükafatlandırılması, "Dəyirmi masa"ların təşkil edilməsi, "Kənd həyatı" qəzetinin xüsusi buraxılışlarının və "Kənd təsərrüfatı" aylıq informasiya bülleteninin hazırlanması, "Dünya Ərzaq Günü"nə, "Dünya Torpaq günü"nə və "2015-ci ilin Beynəlxalq Torpaq İli" elan edilməsinə həsr olunmuş tədbirlərin keçirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, "Aqrolizinq" ASC | il ərzində |
| 5.3 | Kənd təsərrüfatı texnikalarının sərgi-satış yarmarkalarının, həmçinin kənd təsərrüfatı mütəxəssislərinin işlə təmin olunması məqsədi ilə əmək yarmarkalarının təşkil edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, "Aqrolizinq" ASC | il ərzində |
| 5.4 | Kənd təsərrüfatı məhsulları istehsalçılarına müasir tələblərə cavab verən kənd təsərrüfatı texnikalarının sahə nümayişlərinin | Kənd Təsərrüfatı Nazirliyi | il ərzində |

| | | | |
|---|---|---|---|
| | və beynəlxalq təşkilatlarla birgə müxtəlif mövzularda seminar və təlimlərin keçirilməsi, Avropa İttifaqının üzv ölkələri ilə aqrar sahədə əməkdaşlığa dair hüquqi sənədlərin hazırlanması | | |
| 5.5 | “Caspian Agro” 9-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi və “World Food Azerbaijan” 21-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisinin keçirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | II rüb |